**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**NURLAN PAŞA oğlu NƏSİROV**

# HÜLAKÜLƏR DÖVLƏTİNİN SOSİAL-İQTİSADİ VƏ SİYASİ TARİXİ (İNGİLSDİLLİ TARİXŞÜNASLIQ ƏSASINDA)

İxtisas - 5503.02 – "Vətən tarixi"
5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları"

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **Z.H.BAYRAMOV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Ə. İ. MUXTAROVA**
Tarix üzrə elmlər doktoru, dosent **T.H. NƏCƏFLİ**

**Aparıcı müəssisə:** Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası

Dissertasiyanın müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2018-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə dokroru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 saylı Dissertasiya Şurasının "___" __________ 2018-ci il tarixli iclasında, saat "___"-da keçiriləcəkdir

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küç., 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"___________2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
tarix üzrə elmlər doktoru, professor **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası milli müstəqilliyini qazandıqdan sonra xalqımızın sosial-iqtisadi və siyasi tarixinin obyektiv şəkildə öyrənilməsi üçün münbit şərait yaranmışdır. Bu səbəbdən də müasir Azərbaycan tarixşünaslığı üçün tədqiqi önəmli olan, elmi aktuallıq kəsb edən problemlərdən biri də orta əsrlər dövründə Azərbaycan və Ön Asiyanın həyatında əhəmiyyətli rol oynamış dövlətlərin sosial-iqtisadi və siyasi tarixinin dərindən öyrənilməsi məsələsidir.

Tədqiqat obyekti seçdiyimiz XIII – XIV əsrlər Azərbaycanla yanaşı, Yaxın və Orta Şərq ölkələrinin tarixində də olduqca mürəkkəb və ziddiyətli dövr hesab edilir. Bu dövrdə Moğolustan və onun ətraf bölgələrindəki bozqırlarda yaşayan türk-moğol tayfalarının vahid dövlətdə birləşməsi və qərbə yürüşləri nəticəsində oturaq həyat tərzinə sahib olan bir sıra Asiya xalqlarının sosial-iqtisadi və siyasi həyatında köklü dəyişikliklər yaranmışdı. Moğol basqınlarının nəticəsi olaraq işğal olunmuş Yaxın və Orta Şərq ərazilərində metropoliyası Azərbaycan olan, tarixşünaslıqda Hülakü və ya İlxani adlanan moğol dövləti yarandı. Xalqımız bir əsr müddətində bu dövlətin hakimiyyəti altında yaşamış və bu da istər, mənəvi istərsə də, maddi mədəniyyətimizdə eləcə də, dövlətçilik ənənələrimizdə izlər buraxmışdır. Belə ki, əsas təsərrüfatları maldarlıq və ovçuluq olan moğolların qərbə yürüşü zamanı bir sıra ticarət-sənətkarlıq mərkəzi olan şəhərlər dağıdılmış, insanlar kütləvi şəkildə öldürülmuş, əkinçilik təsərrüfatı sahələri otlaqlara çevrilmiş, irriqasiya qurğuları dağıdılımış və ticarət-karvan yolları təhlükəli vəziyyətə gətirilmişdir.

Lakin XIII əsrin ortalarından başlayaraq Moğol imperatorluğunun parçalanması, ulus dövlətlərin yaranması, həmçinin gəlmə moğolların onlara tabe olan yerli əhalinin mədəni üstünlüyünü qəbul etməsi ilə adoptasiya dövrü və ya Avropa tarixşünaslığnda latınca “Pax mongolica” (Moğol sülhü- N.N) deyilən əminamanlıq dövrü bərqərar oldu. “Pax mongolica” moğollar tərəfindən tabe edilmiş Azərbaycan və Orta Şərqdə sosial-iqtisadi və siyasi inkişafla yanaşı, mədəniyyətin də müxtəlif sahələrinin qismən tərəqqisinə müsbət təsir göstərdi. Moğolların qədim türk xaqanlıqlarının dövlət və hərbi idarəçilik sistemindən əxz etdikləri yeniliklər sonrakı əsrlərdə regionda yaranacaq Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar kimi sülalələrin idarə etdiyi dövlətimizin inzibati-idarəçilik və bürokratik sistemində də istifadə edilmişdir. Bu keçid dövrünü müşahidə etməkdə Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixi olduqca önəmli yerə sahibdir və öyrənilməsi günümüz üçün də aktualdır.

Doğrudur, Hülakülər dövlətinin tarixi sovet və müasir dövrün Azərbaycan tarixşünaslığında ərəb və fars dillərində olan zəngin qaynaq materialları əsasında araşdırılmışdır. Ancaq, sovet tarix elmində əksər tədqiqatçılar dövrün ideologiyasına uyğun olaraq "burjua tarixşünaslığı" adlandırdıqları ingilisdilli müəlliflərin əsərlərindən az istifadə etmişlər. Bununla yanaşı mövzuyla bağlı istər sovet, istərsə də, son dövr Vətən tarixşünaslığında XX əsrin ortalarına qədər yazılmış ingilisdilli əsərlərə müraciət olunsa da, demək olar ki əsrin ikinci yarısıdan sonrakı, xüsusilə müasir dövrdə ərsəyə gətirilmiş ingilisdilli əsərlərdən istifadə edilməmişdir.

Ona görə də Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixinin ingilisdilli tarixşünaslıq əsasında araşdırılması və ingilisdilli müəlliflərin tarixi hadisələrə olan münasibətinin öyrənilməsi milli tarixşünaslığımız üçün mühüm əhəmiyyət kəsb edir və aktual mövzulardandır.

Mövzu araşdırılarkən ingilisdilli əsərlərdə Moğol yürüşləri və Hülakülər dövlətinin tarixinə aid ayrı-ayrı problemlərə fərqli yanaşmalar müəyyən edilmiş və maraqlı tarixi faktlar aşkar olunmuşdur ki, bütün bu məsələlərə dissertasiya işində milli tarixşünaslıq konsepsiyamıza uyğun şəkildə münasibət bildirilmişdir. Onu da qeyd etmək lazımdır ki, ingilisdilli tarixçilər əsərlərində bəzi məqamlarda tarixi proses və ya hadisələrə subyektiv mövqedən yanaşırlar. Buna bariz nümunə olaraq göstərmək olar ki, əksər ingilisdilli ədəbiyyatlarda Hülakülər dövlətinin adına "İran Moğolları", "İran İlxaniləri" və ya "Fars moğolları", "Fars İlxaniləri" kimi rast gəlmək olur. Təbii ki dövlətin bu şəkildə adlandırılması ingilisdilli müəlliflərin "İran" və ya "Persia" terminlərinin mahiyyətinin tam olaraq qavramamasından və ya məsələyə subyektiv şəkildə "Avropamərkəzçilik" kontekstindən yanaşmasından irəli gəlir. Dövrün qaynaqlarından da bəllidir ki, antik müəlliflərin əsərlərindən Avropalı tarixçilər üçün miras qalan "Persia" (Parsumaş – N.N) istilahı coğrafi ərazi anlamı daşıyır. Bu səbəbdən ingilisdilli müəlliflərin Çingiz xanın nəvəsi Hülakü xanın Ön Asiyada yaratdığı təkcə Persia(Farsistan) vilayətindən ibarət olmayan və metropoliyası Azərbaycan olan moğol dövlətinə "İran dövlətçliyi" donu geydirərərk "Fars" və ya "İran" dövləti adlandırmalarının və ya Sasanilər sülaləsinin dövlətçilik ənənələrinin yenidən dirçəldən dövlət kimi qiymətləndirmələrinin heç bir ciddi elmi əsası yoxdur.

Digər tərəfdən ingilisdilli müəlliflər əsərlərində İlxanilərə tabe olan dövlətlərin və xalqların tarixinə dair geniş və xüsusi araşdırmalara yer verildikləri halda dövlətin özəyini təşkil edən Azərbaycan haqqında səthi məlumat verməklə kifayətlənirlər. Belə ki, bir sıra tədqiqatlarda moğol yürüşləri zamanı Azərbaycanda mövcud olan Atabəylər, Şirvanşahlar

dövlətinin tarixinə demək olar ki diqqət yetirmirlər. Bundan fərqli olaraq istər, moğol yürüşləri zamanı istərə də, İlxanilər dövlətinin yaranmasından sonra Gürcüstan, Kilikiya Erməni çarlığı və xrisitian Qərb dövlətləri ilə olan münasibətlər haqqında əsərlərində geniş həcmdə məlumatlar verirlər. İngilisdilli tarixçilərin qeyd olunan bu subyektiv fikirlərinin dövrün mötəbər qaynaqları və tarixşünaslıqda mövcud olan alternativ tədqiqat işləri əsasında təhlil edilməsi, mübahisəli məsələlərə aydınlıq gətirilərək obyektiv gerçəkliklərin ortaya çıxarılması milli tarixşünaslığımızın aktual problemlərindən olub, çox böyük elmi əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Moğolların Yaxın və Orta Şərqə etdiyi yürüşlər və Hülakülər dövlətinin tarixi ümumimoğol tarixi səpkisində dünya tarixşünaslığında hələ XIX əsrin birinci yarısından öyrənilməyə başlanmışdır. XX əsrin ortalarından başlanaraq isə Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixi Vətən, Türkiyə, Qərb, rus, tarixşünaslığında daha geniş araşdırılmış və çoxlu sayda əsərlər ərsəyə gətirilmişdir.

Azərbaycan tarixşünaslığında akademik Ə. Əlizadənin tədqiq edilən mövzu ilə bağlı dövrün ilkin qaynaqları əsasında apardığı araşdırmalar və əldə etdiyi yeniliklər onun moğolistika və Vətən tarixşünaslığı üçün dəyərli töfhəsi olan "XIII – XIV əsr Azərbaycanda sosial-iqtisadi və siyasi tarixi" adlı monoqrafiyasında öz əksini tapmışdır. [1] Bununla yanaşı tədqiq olunan mövzunun müxtəlif tərəfləri ilə bağlı M.X.Heydərov, S.Onullahi, V.Z.Piriyev, M.Şərifli, Z.Bünyadov, S.Aşurbəyli, M.Seyfəddini, S.Əliyarlı, M.Əsədov, D.Əzimli, Ə.Nəcəf kimi tarixçilərimizin araşdırmaları xüsusi əhəmiyyətə malikdir.[2] İlxanilər zamanında dini siyasət tarixşünaslığımızda ingilisdilli tədqiqatlar əsasında xüsusi şəkildə araşdırılmasa da, N. Axundova

---

1 Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: 2011. 475 s

2 Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII – XVII вв. Баку: Элм, 1982, 282c; Onullahi S.M. XIII – XVII əsrlərdə Təbriz şəhəri, Bakı: Elm, 1982, 280s; Piriyev V.Z. Azərbaycan XIII – XIV əsrlərdə. Bakı: Nurlan, 2003, 458s; Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316 – 1360-cı illər), Bakı: Elm, 1978, 162 s; Şərifli M.X. XIII – XIV əsrlərdə Azərbayacnda ticarət və ticarət yolları// SSRİ EA Azərb fil.Xəbərləri, 1994, № 2, s.47 – 62; Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı: Elm,1985,268 s; Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, 416s ; Сейфеддини М.А. Монеты Ильханов XIV века*, Академия наук Айзербажанской СССР, Баку: 1968, 220с*; Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər), prof.S.S.Əliyarlının redaktəsi ilə. Bakı: "Azərbaycan" nəşriyyatı, 1996, 872 s.; Əsədov M.Ə. İlxanilərlə Misir-türk məmlükləri arasında bağlanmış Təbriz – Qahirə sülh müqaviləsi // AMEA xəbərləri, TFHS,1994, № 1-4, s 120-127; Əzimli D. Təbriz şəhərinin ticarət tarixindən //Geo strategiya, 2012, №1, s.46-51; Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi. (Oğuzların ortaya çıxmasından XIV əsrə qədər). Bakı: Qanun, 2010, 756s;

və L. Əliyeva kimi tarixçilərimiz öz tədqiqatlarında ingilisdilli tarixşünaslığın vermiş olduğu məlumatlardan da istifadə edərək məsələylə bağlı yeni faktlar aşkar etmişlər[1].

Türkiyə tarixşünaslığında da Hülakülər dövlətinin siyasi və müəyyən qədər də sosial- iqtisadi tarixi tədqiqata cəlb edilmişdir. Araşdarma zamanı Z. V Toğanın, A. Yuvalı, M. Kafesoğlu, M.Uyar, M. Kafalı, H.Şahin, O. Özgüdənli, F.Sümer , İ.Erdem kimi tarixçilərin tədqiqatlarına da müraciət olunmuşdur.[2]

Rus tarixşünaslığında isə problemlə bağlı V.Vladimirtsovun, V.V.Bartoldun, İ.P. Petruşevskinin, A.İ. Falinanın, A.Yakubovskinin əsərlərinin xüsusi əhəmiyyəti vardır.[3]

Qərbi Avropa tarixşünaslığına gəlincə isə problem B. Şpulerin, P.Hammer, K.Dohassan, R.Qrosset, J.P.Rouks, P.Pelliot, G.Döfa kimi tədqiqatçılar tərəfindən araşdırılmış və dissertasiyada onların əsərlərinə müraciət olunmuşdur.[4]

---

1 Ахундова Н.Ф. Развитие Суфизма в Азербайджане Возвышение Шейха Сефи Ад-Дина Исхака Ардебили в Эпоху Илъханата (На основе сведений Западной Историографии), Баку: ИПО Турхан, 2017, 248с; Əliyeva L.A. İslam dini monqol istilası dövründə //Bakı Universitetinin Xəbərləri, №1, 2013 s. 120-125

2 Togan. Z.V. Umumi Türk Tarihine Giriş, İstanbul: Enderun Kitabevi, 3.baskı, 1981, 538s; Yuvalı A. İlhanlı tarihi I kuruluş devri, Kayseri: Erciyes Universitesi yayınları, 1994, 214 s; Kafesoğlu İ. Harezmşahlar Devleti Tarihi, Ankara: TTK Yayınları, 1984, 320s; Mustafa Uyar. İlhanlı devletinin askeri teşkilatı, Basılmamış doktora tezi, Ankara: 2007, 273s; Mustafa Kafalı. Çağatay hanlığı (1227-1345). Ankara: Berikan Yayınevi, 2005, 156.s; Hanifi Şahin. İlhanlılar döneminde şiilik, Doktora tezi, Erzurum: 2008, 202s ; Özgüdenli O. Gazan Han ve Reformları (1295-1304), İstanbul: Kaknüs yayınları, 2009, 524s; Sümer F. Anadolu'da Moğollar // Selçuklu Araştırmaları Dergisi, S.I, 1971, 303s; Erdem İlhan. Olcaytu Han devrinde Horasanda İlhanlı –Çağataylı mücadeleleri // Pamukkale Universitesi Eğitim Fakültesi Dergisi, Sayı 3, 1997, s. 106-112

3 Vladimirstov B.Y. Mogolların İçtimai Teşkilatı, Türkçe ter. Abdulkadir İnan, Ankara: TTK, 340s; Бартольд В. В. Работы по исторической географии и истории Ирана, Москва: "Восточная литература", 2003, 663с; Бартольд В.В.Сочинения (Работы по археологии нумизматике эпиграфике и этнографии) Том 4, Москва: Наука, 1966, 495с; Bartold W.W. Turkestan down to the Mongol invasion. London: The Oxford University Press, 1928, 513p; Петрушевский И. П. Земледелие и аграрные отношения в Иране XIII—XIV веков. Москва: 1960. 492с; Фалина А. И. Реформы Газан-хана, //Уч. зап. Института востоковедения АН СССР, т. XVII, 1959, с.51-57

[4] Bertold Spuler. İran Moğolları. (çeviren Cemal Köprülü), Ankara: Türk Tarih Kurumu Yayınevi, 2011, 579s; Hammer-Purgstall. Geschichte der Ilchane. Das ist der Mongolen in Persien 1200-1350, Amsterdam: 1974, 436s; Konstantin dOhosson. Moğol Tarihi. Denizler imperatoru Cengiz. Türkce tercüme: Bahadır Apaydın, İstanbul: Nesnel Yayınları, 2008, 269s; Grousset R. Conqueror of the World, Translated from French by McKeller and D.Sinor, New York: The Orion Press, 1966, 300p; Jean-Paul Roux. La religion des Turcs et

İngilisdilli tədqiqatçılardan bəhs edərkən qeyd etməliyik ki, XIX əsrin ingilisdilli moğolşünaslığında tədqiqat işlərinin əksər hissəsi Moğol dövlətinin meydana gəlməsi və Çingiz xana həsr edilmişdir. Təbii ki, bu ümumimoğol xarakterli əsərlərin bəzilərində müəlliflər az da olsa Hülakülər dövlətinin tarixinə də toxunumuşlar. Bu qəbildən olan tədqiqatçılara M.Pravdin, E.D. Flipsi, M.Biranı , K.D.Roberti, H.Ləmbi aid etmək olar. Adları çəkilən müəlliflərin əsərlərində İlxanilər dövlətinin siyasi tarixi, sosial-iqtisadi həyatının bəzi məsələləri haqqında olduqca az və pərakəndə məlumatlar verilmişdir.[1]

Moğolların Yaxın və Orta Şərqə yürüşü və İlxanilər dövlətinin siyasi tarixi ilə bağlı kompleks şəkildə araşdırmalar aparmış ingilsdilli tarixçilərdən ilk olaraq Henri Hovorsun adını xüsusi qeyd etmək lazımdır. Onun üç cildik "Moğol tarixi" ("The history of Mongols") əsərinin üçüncü cildi tədqiq olunan mövzu üçün olduqca əhəmiyyətlidir. Müəllif əsərində moğolların tarix səhnəsinə çıxmasından XIX əsrə qədər olan tarixi hadisələri dövrün ilkin qaynaqları əsasında araşdırmağa cəhd göstərmişdir. Ancaq, qeyd etmək lazımdır ki, əsərdə müəllif xristian qaynaqlarında olan məlumatları müqayisəli təhlil etmədən istifadə edərkən bəzən bir sıra inzibati-ərazi vahidlərinin, toponimlərin izahında yanlışlığa yol verir.[2]

Problemlə bağlı araşdırmalar aparmış tarixçilərdən biri də Devid Morqandır. Müəllifin əksər ingilisdilli müəlliflər tərəfindən də tez-tez müraciət edilən "Moğollar" ("The Mongols") adlı monoqrafiyasının adını çəkmək olar. Kitabda Çingiz xan rəhbərliyində moğol yürüşləri və onun vəfatından sonra yaranmış ulus dövlətləri, Hülakülər dövlətinin xarici siyasəti, dini siyasəti, hərbi sistemi dövrün ilkin mənbələri əsasında araşdırılmışdır. Bu əsərlə yanaşı tədqiqatçının araşdırmamız üçün xüsusi əhəmiyyətə malik olan "Ortaçağ İranı" ("Medieval Perisa") adlı monoqrafiyasının "Moğollar və onların İrana gəlişi" adlı altıncı fəslində də Moğolların tarix səhnəsinə çıxması, moğolların Ön Asiyaya yürüşləri,

---

des Mongols, Paris: Payot, 1984, 303p; Paul Pelliot. Historie secrete des Mongols, restitution du texte Mongol et traduction Française des chapitres, Paris: Saint-Sulpice, 1949, 200p; Gerhard Doerfer. Türkische und Mongolische elemente im neopersischen. Band II, Weisbaden: F. Steiner, 1965, 671 s

[1] Prawdin M The Mongol Empire: Its Rise and Legacy, London: New Brunswick, N.J. 2006, 581p; Phillips E.D. The Mongols, Frederick A. Praeger; 4th Printing, 1969,.208p; Biran M. Chinggis Khan, London: Oneworld Publication, 2007, 182p; Robert K.D. The life of Jenghiz Khan, London: Trunber, 1877, 105p; Lamb H. Genghis Khan. The Emperor of All Men, London: Thornton Butterworth, 287p

2 Howorth H. History of the Mongols: from the 9th to the19th century. Part III, London: 1880, 776p

Hülakü ulusunun müstəqil dövlətə çevrilməsi, dövlətinin sosial-iqtisadi və siyasi tarixi haqqında məlumatlar vardır.[1]

Araşdırılan problemlə bağlı ingilisdilli tarixçilər arasında Tomas Allsenin də özünəməxsus yeri vardır. Müəllifin ilk olaraq "Moğol imperializmi. Ali Moğol xanı Münke Kaanın Çin, Rusiya və İslam torpaqlarında siyasəti 1252-1259" ("Mongol Imperialism. The Policies of the Grand Qan Möngke in China, Russia and the Islamic Lands, 1251-1259") adlı monoqrafiyası xüsusi maraq doğurur. Belə ki, kitabda müəllif Tuluy nəslinin hakimiyyətə gəlməsi və Ali moğol xanı seçilən Münke xan tərəfindən Hülakü xanın qərbə göndərilməsi, İlxanilər dövlətinin yaranması, moğolların sosial-iqtisadi siyasəti və başqa bu kimi məsələləri tədqiq etməyə çalışmışdır. Müəllif "Moğol Avroasiyasında mədəniyyət və işğal"("Culture and Conquest in Mongol Eurasia") adlı əsərində ayrı-ayrı İlxani hökmdarları ilə Ali Moğol Xaqanlığı arasında olan münasibətlərə aid olduqca dəyərli və yeni məlumatlar vermişdir. Bununla yanaşı əsərdə numizmatik materiallar əsasında Hülakü hökmdarlarının istifadə etdiyi titullar, xüsusilə İlxan titulunun anlamı və istifadəsi təhlil edilmişdir[2]

Moğolların Yaxın Şərqə üçüncü yürüşü, Hülakülər dövlətinin yaranması və İlxani hökmdarlarının daxili və xarici siyasəti, Hülakülər dövründə sosial-iqtisadi vəziyyəti özündə əks etidirən Con Andrey Boylun redaktorluğu ilə nəşr edilmiş "Kembricin İran tarixi" ("The Cambridge Histrory of Iran") adlı əsərinin beşinci cildindən də araşdırmalar zamanı istifadə edilmişdir.[3]

Hülakülər dövlətinin Misir məmlükləri, xristian qərb dövlətləri ilə olan əlaqələrinin tarixi Reuven Amitai tərəfindən tədqiq edilmişdir. Müəllifin "Moğollar və Məmlüklər, Məmlük-Moğol savaşları, 1260 -1280" ("Mongols and Mamluks,The Mamluk-Ilkhanid War, 1260-1281"), "Moğollar İslam torpaqlarında"("The Mongols in the Islamic Lands") və Mixayl Biranla birlikdə redaktroluq etdiyi "Moğollar, türklər və başqaları"("Mongols, turks and the others") mövzunun öyrənilməsində xüsusi önəmi vardır. [4]

---

1 Morgan D.O. The Mongols. "Peoples of Europe" series, ed. J. Campbell and Cunliffe. B. Oxford: Basil Blackwell, 1986, 223p; Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988, 197p;

2 Allsen T. Mongol Imperialism. The Policies of the Grand Qan Möngke in China, Russia and the Islamic Lands, 1251-1259, London: University California Press, 1987, 278p; Allsen T. Culture and Conquest in Mongol Eurasia, London: Cambridge University Press, 2001, 212p.

3 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, 709 p

4 Amitai R. Mongols and Mamluks. The Mamluk-Ilkhanid War, 1260-1281, London: Cambridge University Press, 1995, 272p ; Amitai R. The Mongols in the Islamic Lands.

İlxanilər dövlətinin Qərb dövlətləri ilə əlaqələri isə xüsusi olaraq Pitr Ceksonun tədqiqatlarında öz əksini tapmışdır. Müəllifin "Moğollar və Qərb" ("The Mongols and the West") adlı kitabında dövrün beynəlxaq münasibətləri sistemi də araşdırılmışdır.[1]

İlxanilər dövlətinin dini siyasəti, dövlətin zəifləməsi, Əbu Səid xanın hakimiyyəti və nəhayət Hülakülər dövlətinin süqut etməsi, Çobani sülaləsinin ağalığı dövrünün öyrənilməsində Çarlz Melvilin tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Müəllifin qeyd olunan pronlemlərlə bağlı yazdığı məqalələri yeni faktiki materialların əldə olunması baxımından əhəmiyyətə malikdir.[2]

İlxanilər dövründə vergi sistemi və aqrar münasibətlər professor Ann Ləmbton tərəfindən araşdırılmışdır. Tədqiqat zamanı müəllifin "İranda mülkədar və kəndlilər"("Landlord and peasent in Persia"), "Ortaçağ İranında davamlılıq və dəyişim" ("Continuity and Change in Medieval Persia") və bir sıra məqalələrindən istifadə edilmişdir[3]

Moğolların tarix səhnəsinə çıxması, onların dini dünyagörüşü, şamanizm və İslam dinin moğol ulus dövlətlərində əks olunması, İlxani-Məmlük münasibətləri, Qazan xanın dini və xarici siyasəti və s. mövzuları özünə ehtiva edən Denis Aiqlen redaktorluğu ilə nəşr edilən "Sirr və reallıq arasında Moğol imperiyası"("The Mongol Empire between Myt and Reality") adlı məqalələr toplusu araşdırma zamanı yeni faktların zəngiliyi ilə diqqəti cəlb etmişdir[4].

Qeyd edilən əsas tarixşünaslıq əsərlərindən başqa mövzunun öyrənilməsində K.Kaenin, Ş.S. Bleyr, F.Hodus, C.Kolbas, K. Tauris,

---

Studies in the history of the Ilkhanate, Burlington: Ashgate, 2007, 390p; Mongols, Turks and others, Eurasian Nomads and Sedentary World. Edited by Reuven Amitai and Michal Biran, Leiden & Boston: Brill, 2005, 550p

1 Jackson P. The Mongols and the West 1221-1410. London and New York: Routledge, 2005, 414p

2 Melville C.P. "The Mongols in Iran," in L. Komaroff & S. Carboni (eds), The Legacy of Genghis Khan. Courtly Art and Culture in Western Asia, 1256-1353, 2002, pp. 36-61; Melville C.P. "Padshah-i Islam: the conversion of Sultan Mahmud Ghazan Khan," in Melville (ed.), Pembroke Papers 1: //Persian and Islamic studies in Honour of P.W. Avery, 1990, pp. 159-177 p; Melville C.P. "The year of the Elephant" Mamluk – Mongol rivalry in the Hejaz in the reign of Abu Said (1317 – 1335) // Studia Iranica, 21, 1991, pp.197-214; Melville C.P. The Royal image in Mongol Iran // Every Inch a King, Comparative Studies on Kings and Kingship in the Ancient and Medieval Worlds, Boston, 2013, pp.344-369

3 Lambton A.K. Continuity and Change in Medieval Persia. Aspects of Administrative, Economic and Social History, 11th-14th Century, Bibliotheka Persia, London: 1988, 411p; Lambton A.K. Landlord and peasent in Persia, London: Oxford University Press, 1953, 458p

4 The Mongol Empire between Myth and Reality. By Denise Aigle, Leyden & Boston: Brill, 2014, 393p

A.P.Martinez, J.F. Fletşer, C.M.Smitin, M.Hop, C.Pfayfr, S.Sandrs, İ.Vasari, P.Vinq, İ.Raçeviltz, D.T. Potsun, D.Sinorun və başqalarının əsərlərindən də istifadə edilmişdir.[1]

**Dissertasiya işinin mənbə bazası.** Mövzunu ingilisdilli əsərlərin təhlili əsasında araşdırarkən bəzi məsələlərə ətraflı, obyektiv, eləcə də, kompleks yanaşmağı zəruri hesab edərək dövrün əsas farsdilli, ərəbdilli,

---

1 Cahen C. The formation of Turkey. The Seljukid Sultanate of Rum: Eleventh to fourteen century. London: Longman. 2001, 302p; Blair S.B. The coins of later Ilkhanids: Typological analysis //Journal of the Economic and Social History of the Orient, Vol. XXVI, Part III, pp. 295-317; Blair S.B. The Mongol capital of Sultaniyyah, Imperial// Iran 24,1986, pp. 139-52; Blair S.B. Tabriz: International Entrepôt under the Mongols// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, pp.321-356; Hodus F. Toluid Dynamics od Asia: Flexibility, legality and identity within Toluid institution, Phd Thesis, London: Univeristy of London, 2013, 264p; Kolbas J. The Mongols in Iran. Chingiz Khan to Uljaytu 1220-1309, London-New York: Routledge, 2006, 432p; Chivitas Thauris. The significance of Tabriz in the spatial framework of the christian merchants and ecclesiastics in the 13th and 14th centuries// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, pp.251-299; Martinez A.P. Some notes on the Il-Xanid army //Archivum Eurasiae Medii Aevi 6 ,1986, pp.129-242; Fletcher J.F. The Mongols: ecological and social perspectives //Harvard Journal of Asiatic Studies 46,1986, pp.11-50; Smith J.M. Mongol and Nomadic Taxation //Harward Journal of Asiatic Studies, Vol.30, 1970, pp.46-85; Smith J.M. Mongol Manpower and Persian population// Journal of the Economic and Social Hisstory of the Orient, Vol, XVIII, part III, pp. 271-294; Smith J.M. Mongol Nomadism and Middle Eastern Geography: Qishlaqs and Tümens// The Mongol empire and its legacy, Edit by R.Amitai and D.Morgan, Leyden-Boston-Koln: Brill, 1999, pp.39-47; Smith J.M. The History of Sarbadar dynasty 1336-1381 A.D and its sources, Paris: Mouton, 1970, 216p; Michael H. Some Note on Revange an Justice in the Mongol Empire and the Il-Khanate of Iran// Journal of the American Oriental Society, 136, 3, 2016, pp. 551-566; Pfeiffer J. "Conversion versions: Sultan Öljeytü's conversion to Shi'ism (709/1309) in Muslim narrative sources," Mongolian Studies 22 , 1999, pp. 35-67; Saunders J.J. The History of the Mongol Conquests, Pensilvania: University of Pennsilvania Press, 2001, 275p; Saunders J.J. A history of Medieval Islam. London&New York: 2002, 219p; Vasary I. The Preconditions to Becoming a Judge (Yarġuči) in Mongol Iran //Journal of the Royal Asiatic Society, 26, 2006, pp 157-169; Vasary I. The Role and Function of Mongolian and Turkic in Ilkhanid Iran //Turks and Iranians interaction in Language and History. Harrassowits Verlag- Wiesbaden: 2016. pp.141 -152; Patric W. Rich in goods abounding in wealth the Ilkhanid and post-Ilkhanid ruling elite and the politics of commercial life at the Tabriz, 12501400// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, pp.301-320; Rachewiltz I. The genesis of the name "Yeke Mongol Ulus"// East Asian History, November 31, 2006, pp.53-56; Potts D.T. Nomadism in İran from antiquity to the modern era, New York: Oxford University Press, 2014, 876p; Sinor D. "The Inner Asian warriors," // Journal of the American Oriental Society 101/2, 1981, pp. 133-144

erməni və gürcüdilli mənbələrinə, eləcə də, səyyah gündəliklərinə də müraciət edilmişdir.

İngilisdilli tarixçilərin daha çox müraciət etdikləri, ancaq Vətən tarixşünaslığımızda az istifadə edilən, moğol dövrünün ilkin qaynağı olan “Moğolların gizli tarixi” adlı anonim əsər böyük elmi əhəmiyyət kəsb edir. Mənbədə moğolların tarix səhnəsinə çıxması və onların həyat tərzi, Çingiz xanın nəsil şəcərəsi, uşaqlıq illəri, türk-moğol aşirətlərini vahid halda birləşdirməsi, moğolların qərbə yürüşü və başqa hadisələr təsvir olunmuşdur. Bununla yanaşı tədqiq etdiyimiz sosial-iqtisadi və dövlət quruluşu məsələlərinin dərindən araşdırılması, moğollar tərəfindən istifadə edilən terminlərin aydınlaşdırılmasında qaynağın özünəməxsus önəmi vardır. Tədqiqat zamanı əsərin ingilis dilində olan üç tərcümə variantından istifadə edilmişdir.[1]

XIII –XIV əsrlərdə fars dilində yazılmış əsərlərdən Ata Məlik Cüveyninin “Tarix-i Cahanquşa” əsərini xüsusi vurğulamaq lazımdır. Əsər Çingiz xanın siyasi fəaliyyətə başlamasından Hülakü xanın qərbə göndərilməsi və ismaillilərin tabe edilməsinə qədərki dövrü əhatə edir. Qaynağın bundan sonra olan hissəsinə isə Xacə Nəsirəddin Tusi tərəfindən Bağdadın Hülakü xan tərəfindən tutulması başlığı altında zeyl (əlavə -NN) daxil edilmişdir. Araşdırma zamanı qaynağın fars və ingilis dilində olan elmi tənqidi mətnlərindən istifadə edilmişdir.[2]

Tədqiq edilən müxtəlif məsələlərin aydınlaşdırılmasında Fəzlullah Rəşidəddin Həmədaninin “Cami üt-Təvarix” əsərinə əsas qaynaq kimi tez-tez müraciət edilmişdir. Vətən tarixşünaslığında bu əsərin fars və rus dilində olan tərcümələrindən istifadə edilmişdir. Lakin, biz əsərin V.Takstonnun redaktorluğu ilə ingilis dilinə tərcümə edilmiş variantından da istifadə etmişik[3].

Hülakülər dövlətinin sosial-iqtisadi həyatı, dövlət quruluşu, inzibati

---

1 The Secret History of the Mongols, translate by F.W. Cleaves, London: Harward Univeristy Press, 1982, 277p; The Secret History of the Mongols, A Mongolian Epic Chronicle of the Thirteenth Century, Translated by Igor de Rachewiltz, The Australian National University: 2015, 268p; The Secret History of the Mongols. The Life and Times of Chinggis Khan translate by Onon.U, London and New York: Routlege Cruzon, 2001, 300p

2 Juvaini Ata Malik. The History of the World Conqueror, tr. J.A. Boyle, Manchester: Manchester University Press, 1997, 763 - علاء الدین عطا ملک جوینی. تاریخ جاهانگشای. در یک مجلد. تصحیح: محمد قزوینی. تهران: انتشارات نگاه، ۱۳۹۱ ، ۱۰۱۶ ص.

3 Rashiduddin Fazlullah's Jamiʿuʾt-tawarikh. Compendium of chronicles: a history of the Mongols (English translation & annotation by W.M. Thackston).Vol III, Harvard University, Dept of Near Eastern Languages and Civilizations.1998, 819p; . جامع التواریخ. تصحیح: محمد رشیدالدین فضل الله همدانی. روشن. تهران: البرز، ۱۳۸۳،۲۶۷۷ص

və hərbi idarəçilik kimi məsələlərin dərindən öyrənilməsində Azərbaycan türkü Məhəmməd ibn Hinduşah Naxçıvaninin “Dəstur əl-katib fi təyin əl-məratib” adlı əsərinə müraciət olunmuşdur. Akademik Ə.Əlizadə tərəfindən iki cilddə fars dilində nəşr edilmiş əsərin ikinci cildi tədqiq etdiyimiz məsələlərin araşdırılmasında önəmli məxəz hesab edilir [1].

Araşdırmalarımız zamanı Mustovfi Həmdullah Qəzvinin[2], Zeynəddin ibn Həmdullah Qəzvinin[3], Abdullah Şirazinin[4], Əbu Bəkr əl-Qütbi əl-Əhərinin[5], Abdullah Kaşaninin[6], Hafez Əbrunun[7], Ağsaraylı Kəriməddin Mahmudun[8], Minacəddin Cüzcaninin[9], İbn Bibinin[10], Dərviş Təvəkkül ibn Bəzzazın[11] əsərlərinə dövrün əsas məlumatverici və ilkin qaynaqları kimi ingilisdilli tarixşünaslığda olan müxtəlif mübahisəli məsələlərin dəqiqləşdirilməsində müraciət olunmuşdur.

Araşdırma zamanı İbn əl-Əsirin[12] , Şihabəddin Nəsəvinin,İbn [13]

---

**1- محمد بن هندو شاه نخجوانی. دستور الکاتب فی تعیین المراتب. جلد دوم، متن علمی انتقادی با مقدمه و فهرستها و اهتمام و تصحیح: عبدالکریم اوغلی علی زاده، مسکو: اداره انتشارات دانش، ۱۹۷٦، ۶۴۹ ص.**

**2 - حمدالله مستوفی قزوینی. نزهت القلوب. بکوشش: محمد دبیر سیاقی. تهران: ناشر کتابخانه ظهوری، ۱۳۳٦، ۲۴۵ص** . Hamdullah Mustawfi Qazwini. The Tarikh-i-Guzida, Translate by E.G. Browne, London: Gibb Memorial, 1913, 237p; Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e Qozide (Seçilmiş tarixə əlavə). Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyev, Bakı: Elm,1986, 148s

3 Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-etarix-e qozide. Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D. Kazımovun və V.Z.Piriyevindir, Bakı: Elm, 1990, 212s

**4 عبدالله من فضل الله وصاف. تاریخ وصاف. با هتمام: محمد مهدی اصفهانی. تهران: انتشارات کتابخانه مجلس،۱۲٦۹، ۷۰۷ ص**

5 Tarikh-i Shaikh Uwais. An important source for the history of Adharbaijan in the fourteenth century. By J.B. Van Loon, Amsterdam: Mouton&Co, 1954, 184p

**6 ابوالقاسم عبدالله بن محمد القا شانی. تاریخ اولجایتو. به اهتمام: مهین همبلی. تهران: انتشارات زیبا، ۱۳٤۸ ، ۲۸۵ ص**

7 **حافظ ابرو . زیل جامع التواریخ رشیدی , به اهتمام دکتر حانبابا بیاننی , تحران:, ۱۳۱۷۰, ۲۸۸ص**

8 Aksarayi Kerimüddin Mahmud. Musıimeretü'l Ahbar, Çeviren M N.Gencosman, Ankara: 1943, 383s

9 Tabakat-i Nasiri, The general history of the Muhammadan dynasties of Asia, by Maulana Minhaj-ud-Din, Abu Umar-i Osman Juzcani. Vol II, Translate from orginal persian mauscripts by M.H.G Raverty, New Delhi: 1970, 1296p

10 İbn Bibi. El Evamirül - Alaiye fi Umuril-Alaiye(Selçük name), Çeviren: Mürsel Öztürk, Cilt. I-II, Ankara: 1993. I-468s, II-265s

**11 درویش توکلی بن اسمعیل بزاز. صفاه الصفا. مصحح: غاا مر ضا طباطبای مجد. تبریز: ۱۳۷۳. ۱۳۴۸ص**

12 İbnül-Esir. El-Kamil Fit-Tarih, XII Cilt, Çeviri: Ahmet Ağırakça, İstanbul: Bahar Yayınları, 1985, 468s

13 Шихаб ад-Дина Мухаммада ибн Ахмада ан-Насави. Сират ас-султан Джалал ад-Дин Манкбурны (Жизнеописание султана Джалал ад-Дина Манкбурны), пер. З.М. Буниятов, Москва: Наука, 1996, 798; Histoire De Sultan Djelal Ed-Din Mankobirti Prence du Kharezm. Par Mohammed En-Nesawi, Traduit de L’arabe O.Houdas, Paris : Rue De

Tağrıberdinin[1] ərəb dilində yazdıqları mənbələrdən də istifadə edilmişdir.

Bəzi məsələlərin aydınlaşdırılmasında dövrün ermənidilli müəlliflərindən Aknerli Qriqorun "Oxçu xalqın tarixi", dövrümüzə qrabarda gəlib çatmasına rəğmən müəllifi alban olan Gəncəli Kirakosun "Tarix" əsərlərinə, eləcə də gürcüdilli "Kartlis Tsxovreba" və suryani Bar Hebreyin "Tarix" salnaməsinə müraciət olunmuşdur[2]

İlxanilər dövründə ticarət, şəhərlərin sosial-iqtisadi vəziyyətini araşdırarkən İbn Bəttutə, Marko Polo, Plano Karpini, Vilhelm Rubruk, Con Mandevil, Odoriko Pordenone kimi səyyahların gündəliklərinə, bundan əlavə dövrə aid nümizmatik materiallar və diplomatik sənədlərə də diqqət yetirilmişdir.[3]

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixini ingilisdilli tarixşünaslıq əsasında araşdırıb, ilkin qaynaqlardan istifadə edərək kompleks şəkildə təhlil etməkdən ibarətdir.

Qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Hülakülər dövlətinin yaranmasından öncə moğolların Yaxın və Orta Şərq ölkələrinə etdikləri işğalçı yürüşlər və bu zaman regionda mövcud olan siyasi vəziyyəti ingilisdilli tarixşünaslıq və alternativ qaynalar əsasında təhlil etmək;
- Hülakü xan rəhbərliyində türk-moğol ordusunun qərbə üçüncü yürüşü nəticəsində Hülakülər dövlətinin yaranması və dövlətin beynəlxalq əlaqələrini ingilisdilli tarixşünaslığnda öyrənilməsi səviyyəsini müəyyən etmək;
- Hülakülər dövlətinin və mərkəzinin Azərbaycanda yerləşməsinin

---

Naparete, 1895,484p

1 İbn Tagriberdi. En – Nücumuz – Zahire (Parlayan Yıldızlar), Arapçadan çeviri, D.Ahsen Batur, İstanbul: Selenga Yayinlari, 2013, 621s;

2 Boyle A. B. Kirakos of Ganjak on the Mongols// Centeral Asiatic Journal, Vol.8, №3, 1963, pp.199-214; Grigor of Akner, The History of the Nation of the Archers, tr. R.P. Blake & R.N. Frye, //Harvard Journal of Asiatic Studies, Vol. 12, No. 3/4 (Dec.1949), pp. 269-399; Kartlis Tskhovreba. A history of Georgia. Tbilisi: Artaunji Publishing, 2014, 443p

3 Ebu Abdullah Muhammed İbn Battuta Tanci. İbn Battuta Seyahetnamesi, Çeviri, inceleme, notlar: A.Sait Aykut, I cilt, İstanbul: YKY, 2000, 580s; The travels of Marco Polo. Translated and with an introdoction by Roland Latham, London: Penguin Books, 1958, 353p; The travels of Sir John Mandeville. C.Moseley, London: Penguen Book, 1983, 206p; The Story of The Mongols whom we call The Tatars by Friar Giovanni Di Plano Carpini. Translate with an introduction by Erik Hildinger, Boston: Branden Publishing Company, 1996, 136p; The travel of William of Rubruck to the Eastern Part of the World 1253-1255, London: Hakluyt Society, 1948, 304p

səbəblərini ingilisdilli tarixşünaslıq əsasında müəyyənləşdirilməsi;

- Hülakülər dövlətinin tənəzzülü prosesinin səbəb və nəticələrinin ingilisdilli tarixşünaslığında öyrənilməsinin müəyyən edilməsi;

- Moğol yürüşləri nəticəsində tabe edilmiş ölkələrdə həyata keçirilən sosial-iqtisadi siyasəti eləcə də Qazan xanın həyata keçirdiyi sosial-iqtisadi yönümlü islahatları və bu islahatların nəticələrinin ingilisdilli tarixşünaslıqda öyrənilməsi səviyyəsini müəyyən etmək və bəzi problemli məsələləri dövrün alternativ tarixşünaslıq əsərləri əsasında təhlil etmək;

- Moğol yürüşləri və daha sonra yaranmış Hülakülər dövləti zamanında işğal edilmiş ərazilərdə şəhərlər, ticarət və beynəlxalq iqtisadi əlaqələrin ingilisdilli tədqiqatlarda əks olunma səviyyəsini müəyyənləşdirmək;

- Moğol işğalları və Hülakülər dövlətinin Yaxın Şərq ölkələrinin aqrar quruluşuna etdiyi təsiri xüsusilə torpaq və vergi sisteminin tarixinin ingilisdilli tarixşünaslıqda tədqiqi səviyyəsini müəyyənləşdirmək;

- Hülakülər dövlətinin quruluşu, hərbi, mülki, inzibati orqanları, dini təsisatlar və məhkəmə sisteminin ingilisdilli tarixşünaslıqda araşdırılması səviyyəsini müəyyən etmək;

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsası araşdırılan mənbələrə tənqidi yanaşma və qiymətləndirmə, mənbələrdə əks olunan faktların dürüstlüyünü üzə çıxarmaq üçün mövcud faktların qarşılıqlı müqayisəli təhlili və ümumiləşdirmə təşkil edir. Empirik tədqiqat üsulu ilə dissertasiyadakı məlumatlar daha da təkmilləşdirmək mümkün olmuşdur. Bəzi məlumatların doğruluğunu müəyyən etmək üçün sistemli və kompleks yanaşma metodundan istifadə edilmişdir. Bundam başqa fərdi qiymətləndirmə üsulundan da istifadə olunmuşdur. Tədqiqat zamanı dövrə aid demək olar ki, əksər mənbələr öyrənilmiş, mənbələrə tənqidi yanaşılmış, obyektiv surətdə təhlillər aparılaraq ümumi nəticə çıxarılmışdır. Eyni zamanda onu da deyə bilərik ki, hər hansı bir hadisəyə qiymət verərkən əvvəlki və sonrakı dövrə aid məlumatlar da öyrənilərək, müqayisələr aparılmış, müsbət və mənfi cəhətlər müəyyənləşdirilərək dissertasiyada işıqlandırılmışdır. Bütün bunları nəzərə alaraq onu vurğulamaq mümkündür ki, dissertasiya işində müqayisəli təhlil zamanı son illərdə işıq üzü görmüş ədəbiyyatlardan da geniş istifadə olunmuşdur.

**Tədqiqatın obyekti** Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixini ingilisdilli tarixşünaslıq əsasında araşdırılmasıdır.

**Tədqiqatın predmeti** Hülakülər dövründə Azərbaycanda və Orta Şərqdə siyasi durum, beynəlxalq əlaqələr sistemi, dövlət quruluşu, hərbi-inzibati sistem, mülki idarəçilik, vergilər, torpaq mülkiyyət formaları,

şəhərlər, ticarət və beynəlxaq ticarət əlaqələridir

**Dissertasiya işinin xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi Hülakülər dövlətinin mövcud olduğu XIII əsrin 50-ci illərin sonlarından - XIV əsrin 50-ci illərin sonuna qədərki dövrü əhatə edir. Ancaq bununla yanaşı Hülakülər dövlətinin yaranmasından öncəki dövrdə Moğolların Yaxın və Orta Şərqə yürüşləri və bu zaman sosial-iqtisadi və siyasi vəziyyətlə bağlı məsələlərə də toxunulmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyini şərtləndirən əsas cəhətlər aşağıdakılardır:

- Hülakülər dövlətinin sosial-iqtisadi və siyasi tarixi tarixşünaslıqımızda ilk dəfə olaraq ingilisdilli tarixşünaslıq əsasında araşdırmaya cəlb edilmişdir.

- Tədqiqat zamanı ingilisdilli müəlliflərin irançılıq konsepsiyasına söykənərək Hülakülər dövlətini "Fars(və ya Persiya) İlxaniləri" və ya "İran İlxaniləri" adlandırması, eləcə də Azərbaycanın Persiyanın bir hissəsi və ya vilayəti təqdim olunması kimi subyektiv mülahizələri təkzib edilmişdir. Bununla yanaşı, dövrün mötəbər qaynaqları əsasında dövlətin təməlinin türk-moğol tayfaları tərəfindən qoyulması, mərkəzinin isə Fars(Perisayada) və ya İranda deyil, Azərbaycanda yerləşməsi elmi cəhətdən əsaslandırılmışdır.

- İngilisdilli tarixşünaslıqda İlxanilər dövlətinin Sasanilər sülaləsinin dövlətçilik ənənələrini davam etdirməsi və onun varisi sayılması, dövlətin müsəlman əhalisini ümumi adla "iranlılar" adlandırılmasının yanlışlığı elmi dəlillərlə sübuta yetirilmiş və obyektiv gerçəkliklər üzə çıxarılmışdır.

-Araşdırma zamanı bəzi ingilisdilli müəlliflərin məsələlərə xristian təəssübkeşliyindən yanaşaraq əsərlərində Hülakülər dövlətinin tabeliyində olan xristian xalqlarının tarixinə xüsusi yer vermələri, tarixi Azərbaycan torpaqlarının Kiçik Asiyada yerləşən Kilikiya Erməni çarlığının əraziləri kimi təqdim etmələri, eləcə də, müxtəlif məsələlərdə yol verdikləri nöqsanlar, təhriflər, real gerçəklilərə göz yummaları mənbələrdən əldə etdiyimiz faktların müqayisəli təhlili əsasında təkzib edilmiş və onların məsələlərə yanaşmalarının yanlışlığı elmi cəhətdən əsaslandırılmışdır.

- Hülakülər dövlətinin müstəqil dövlətə çevrilməsi prosesi, dövlətin yaranması xronologiyası və adlandırılması, siyasi tarixi və ayrı-ayrı İlxani hökmdarlarının xarici siyasəti ingilisdilli tarixşünaslıq əsasında araşdırlmışdır.

- Azərbaycanın Hülakülər dövlətinin metropoliyası seçilməsi məsələsi ingilisdilli tarixçilərinin mülahizləri əsasında təhlil edilmiş və bunun əsas səbəbləri aydınlaşdırılmışdır.

- Vətən tarixşünaslığında xüsusi tədqiqat obyektinə çevrilməyən və

ya qismən araşdırılan Hülakülər dövlətinin Avropa xrisitian səlibçi dövlətləri, Misir məmlük sultanlığı, Cağatay xanlığı, Anadolu səlcuqluları və Ali Moğol xaqanlığı ilə münasibətləri araşdırmaya cəlb edilmiş yeni fakt və məlumatlar üzə çıxarılmışdır.

- Hülakülər dövlətinin dini siyasəti, ayrı-ayrı hökmdarlarının dini mənsubiyyəti, dövlətin islamlaşması prosesi ilk dəfə ingilisdilli müəlliflərin mülahizələri və dövrün əsas qaynaqları əsasında araşdırılmışdır.
- Mövzünün tədqiqi zamanı istifadə edilən bir sıra qaynaqların ingilis və digər dilllərdə olan elmi tənqidi mətnlərindən ilk dəfə tarixşünaslığımızda istifadə olunmuşdur.
- Araşdırma nəticəsində mövzu ilə bağlı Vətən tarixşünaslığmızda istifadə olunmayan 150-dən çox ingilisdilli tədqiqat əsəri elmi dövriyyə cəlb edilmişdir.

**Dissertasiya işinin praktik əhəmiyyəti** Dissertasiyada əldə edilmiş elmi nəticələr və ümumiləşdirmələr nəzəri və praktiki əhəmiyyət kəsb edir. Tədqiqat işindəki faktlar, materiallar, elmi yenilik və nəticələrdən , Azərbaycan tarixi üzrə ümumiləşdirici əsərlərin, dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. O cümlədən ali məktəblərin Tarix fakültələrində mühazirələrin oxunması və xüsusi kursların tədrisində də istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın elmi nəticələri və məzmunu müəllifin xaricdə və Azərbaycanın nüfuzlu elmi jurnallarında çap olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, elmi işin məqsəd və vəzifələri, xronoloji çərçivəsi, nəzəri-metodoloji əsası, praktik əhəmiyyəti, elmi yeniliyi göstərilmişdir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan və Orta Şərqdə siyasi vəziyyət"** adlanır və üç yarımfəsildən ibarətdir. Fəslin **"Hülakülər dövlətinin yaranması öncəsi Azərbaycan və Orta Şərqdə siyasi durum"** adlı birinci yarımfəslində XIII əsrin 30-50-ci illərində Azərbaycan və Orta Şərqin siyasi durumu, bu regionlara moğolların ilk hərbi yürüşləri, işğal

etdikləri bölgələrdə yaratdıqları hərbi-inzibati idarəçilik sistemi təhlil olunmuşdur.

İngilisidilli tarixşünaslıqda Corm0ğon noyan tərəfindən Azərbaycanın işğalı (1231-1239) zamanı diqqət yetirilən məsələlərdən biri regionun moğol hərbi-köçəri əyanları arasında bölünməsi və "təmma" adlanan hərbi-inzibati idarəetmə sisteminin təsis edilməsidir. Belə ki, artıq Cənubi Qafqazın idarəçiliyi Ali Moğol xaqanının adınından bölgənin həm mülki, həmdə hərbi idarəçiliyini həyata keçirən əsasən uyğur türklərindən olan bitikçi və ya baskak adlanan mülki məmurlara(ingilisdilli tarixşünaslıqda - civil viceroys) həvalə olundu. Bu məmurlardan Arqun ağanın fəaliyyətini xüsusi tədqiqat obyekti seçən C.Leynin fikrincə Arqun ağa Hülakülər öncəsi moğolların vergi sistemini təsis edən bürokrat kimi xüsusilə yad edilməldir.[1] Onun Hülakülər dövlətinin yaranması öncəsi həyata keçirdiyi siyahıyalmalar və vergi sistemi ilə bağlı gördüyü tədbirlər bir növ gələcəkdə yaranacaq Hülakülər dövlətinin mülki idarəçiliyinin bünövrəsini qoydu.

Dissertasiyanın **"Hülakülər dövlətinin yaranması, möhkəmlənməsi və beynəlxalq əlaqələri"** adlanan ikinci yarımfəsli moğolların Yaxın və Orta Şərqə etdikləri üçüncü yürüş və bu yürüşün nəticəsi olaraq yaranmış dövlətin siyasi tarixi şərh olunmuşdur. 1251-ci ildə Ali Moğol xaqanı seçilən Münke xan öz qardaşı Hülakü xana bir sıra tapşırıqlar verərək qərb istiqamətinə hərbi səfərə göndərdi. İngilisdilli tarixçilərin yazdıqlarına görə Hülakü xan Orta Şərq və Ön Asiyada bu tapşırıqlara əsasən tam tabe edilməmiş və itaətdən çıxan ölkələrin yenidən asılı hala salınmalı, ismaillilərin kökünün kəsilməli, həmçinin Abbasilər xanədanının mərkəzi olan Bağdad tutulmalı, Əyyubilər tabe edilməli idi.[2] A.Boyl Hülakü xana verilmiş tapşırıqlara bölgənin ticarət yollarında daim quldurluq edən kürd və lurların qarşısının alınması da əlavə edir.[3]

1258-ci ildə Bağdadın işğalından sonra Hülakü xan mərkəzi Azərbaycan olan beşinci moğol ulusnu – Hülakülər dövlətinin əsasını qoydu. Hülakülər dövlətinin metropoliyasının Azərbaycanda yerləşməsi əksər ingilsdilli tarixçilər tərəfindən bölgənin zəngin təbii sərvətləri, strateji mövqeyi və ticarət-karvan yollarının qovşağında yerləşməsi ilə izah olunur.

---

1 Lane G. Arghun Aqa: Mongol Bureaucrat // Iranian Studies, volume 32, number 4, Fall 1999, p.460

2 Amitai R. Mongols and Mamluks. The Mamluk-Ilkhanid War, 1260-1281, London: Cambridge University Press, 1995,p.12-15; Lane G. Early Mongol rule in thirteenth- century Iran, London & New York: Routledge Curzon, 2003, p.15-36; Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988,p. 58-59

3 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, p340

Hülakülər dövləti yarandıqdan sonra demək olar ki bütün İlxanların xarici siyasətini əsasən qonşu dövlətlərlə münasibətlər təşkil etmişdir. Ancaq ingilisdilli tarixşünaslıqda Hülakülərin qonşu dövlətlərdən Qızıl Orda dövləti ilə olan münasibətləri geniş şəkildə tədqiq edilməmişdir. Bundan fərqli olaraq Misir Məmlük sultanlığı ilə olan münasibətlər isə daha dərindən araşdırılmışdır.

Hülakülər dövlətinin cənub-şərqdən qonşusu olan Cağatay xanlığı ilə münasibətləri M.Biran tərəfindən araşdırlmışdır. Əsasən Xorasan uğrunda Abaqa xanın zamanından başlanmış münaqişə sonrakı ilxanlar zamanında da davam etmişdir. Misir Məmlükləri və Qızıl Orda dövlətinin bir cəbhədə birləşməsi Hülakü xanlarını yeni müttəfiqlər axtarmağa vadar etmişdi. Bu səbəbdən də Hülakü xandan başlanaraq sonrakı İlxanalar daim Avropa xristian dövlətləri və Səlibçi qüvvələrlə diplomatik əlaqələr yaratmağa cəhd göstərmiş amma bu əlaqələrdən faydalı nəticələr əldə olunmamışdır. Hülakülərin Ali Moğol xaqanlığı ilə olan münasibətləri də ingilisdilli tarixşünaslıqda diqqət çəkən məsələlərdən biridir. Hülakü xanın zamanından Ali Moğol xaqanlığından nominal asılılıq münasibətləri Qazan xanın zamanından demək olar ki aradan qalxmış və daha çox iqtisadi və mədəni əlaqələr formasında davam etdirilmişdir.

Dissertasiyanın üçüncü yarımfəsli **"Hülakülər dövlətinin süqutu"** adlanır. Əksər ingilisdilli tarixçilər Hülakülər dövlətinin tənəzzülü məsələsini dərindən təhlil etməyərək, qaynaqlarda olan mövcud faktları qeyd etməklə kifayətlənirlər. Ancaq Əbu Səid dövrünü xüsusi tədqiq edən Ç.Melvill bu cəhətdən istisna təşkil edir. Müəllif Əbu Səid dövründə baş vermiş üsyan və iğtişaşların bir neçəsinə dair məqalələr həsr etmiş və bunların əsas səbəblərini aydınlaşdırmağa çalışmışdır.[1] Hülakülər dövlətinin süqutu xronologiyası əksər ingilisdilli ədəbiyyatlarda vəliəhdi olmayan Əbu Səidin ölüm tarixi yəni 1335-ci il qəbul edilmişdir.[2] Ancaq problemlə bağlı dərindən araşdırımalar aparmış bir sıra tədqiqatçıların qənaətlərindən məlum olur ki, Hülakülər dövlətinin süqutu tarixi 1357-ci ilə təsadüf edir.[3]

---

1 Melville C.P. "The year of the Elephant" Mamluk – Mongol rivalry in the Hejaz in the reign of Abu Said (1317 – 1335) // Studia Iranica, 21, 1991, pp.197 -214; Melville C.P. The End of the Ilkhanate and After: Observations on the Collapse of the Mongol World Empire //in Bruno de Nicola & Harles Melville(eds), The Mongols Middle East: Continiuty and Transformation in Ilkhanid Iran, Leiden: 2016, pp.309-335

2 Prawdin M The Mongol Empire: Its Rise and Legacy, London: New Brunswick,2006, p.379 ; Sykes P.M. A History of Persia. In two volums. Vol.II. London: St. Martin's street, 1921,p;

3 Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316 – 1360-cı illər), Bakı: Elm, 1978, 162 s

Dissertasiyanın ikinci fəsli **“Hülakülər dövlətinin dövlət quruluşu”** adlanır və üç yarımfəsildən ibarətdir. İkinci fəslin ilk yarımfəsli **“Ali hakimiyyət və mülki idarə sistemi”** adlanır. Hülakülər dövlətinin başında İlxan titulu daşıyan hökmdar dayanırdı. İlkin Hülakü hökmdarları dövründə idarəçilikdə hərbi-köçəri qaydaların təsiri daha böyük idi. Hökmdarın yanında ali qanunverici orqan olan və qaynaqlarda “kəngəş” və ya “gənəş” adlanan qurultay fəaliyyət göstərirdi. F.Hodusun fikrincə Çingiz xanın dövründən başlanaraq moğollarda hökmdarı seçmək məqsədi ilə çağırılan qurultaylar artıq bəlli olan hökmdarın qəbulunu qanuniləşdirmək, yeni qaydaları möhkəməndirmək və bir də məhkəmə funksiyasını yerinə yetirirdi.[1]

Hülakülər dövlətinin mülki idarəçilik işləri “divan sistemi” üzrə təşkil edilmişdi. Mərkəzi divanlar vəzirlər tərəfindən idarə olunurdu. M.Naxçivaninin vəzirin vəzifələri haqqında verdiyi bilgilərdən məlum olur ki, vəzir ölkənin ümumi iqtisadi vəziyyətini nizamlamalı, tənəzzül və inkişafının səbəblərini müəyyənləşdirməli, maliyyə məsələlərini həll etməli və ilk növbədə, səltənətin, şahzadələrin, onların ailə üzvlərinin təchizatını təmin etməli idilər.[2] E.D.Flipsə görə yam təşkilatı, inşaat fəaliyyətləri, sikkə zərbi və əmlak düzənləmələri də vəzirin vəzifələri sırasına daxil idi .[3] Vəzirlər mənbələrdə “naib” əksər hallarda isə “sahib-i divan” titulu ilə xatırlanır. A.Danuunun fikrincə vəzirlik və sahib divanlıq Baydu xanın zamanında birləşdirilmiş, lakin, Qazan xanın dövründə yenidən ayrılmışdır.[4] D.Morqanın haqlı olaraq vurğuladığı kimi Hülakü ulusunda vəzirlik yüksək mənsəb hesab olunsa da, bu vəzifə sahibinin işində nöqsanlar aşkar edildiyi halda ağır cəzalara məhkum edilərək əmlakı müsadirə olunurdu.[5]

Vəzirin koməkçisi olan naib-i vəzarat adlı məmurlar maliyyə dəftərləri, gündəlik dəftərləri və vəzirin digər işlərini qaydaya salıb ona məruzə etməklə hökümlü idi. D.Aiqlin fikrincə bu dövrdə maliyyə işlərinə rəhbərlik edən şəxslər vəzirlərdən ayrılıraq onun koməkçisi təyin olunurdular.[6]. A.Ləmbton araşdırmaları nəticəsində Abaqa xanın hakimiyyəti

1 Hodus F. The Quriltai as a Legal Institution in the Mongol Empire //Central Asiatic Journal, Vol. 56 (2012/2013), p. 87-102

**2 محمد بن هندو شاه نخجوانی. دستور الکاتب فی تعیین المراتب. جلد دوم، متن علمی انتقادی با مقدمه و فهرستها و اهتمام و تصحیح: عبدالکریم اوغلی علی زاده، مسکو: اداره انتشارات دانش، ۱۹۷۶، 75.s**

3 Phillips E.D. The Mongols, Frederick A. Praeger; 4th Printing, 1969, p.18

4 Ankhbayar Danuu. İlhanlı devletinde vezaret. Basılmamış doktora tezi, Ankara: 2016, p.288

5 Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988, p.66

6 Denis A. Iran under Mongol domination: The effectiveness and failings of a dual administrative system// Bulletin d’études orientales. Supplément LVII, 2008, p. 73

dövründə fərmanların sol kənarına Məcidülmülk, sağ kənarına isə Şəmsəddin Cüveyninin möhürünün olmasını aşkar etmişdir. [1]

Dissertasiyanın Hülakülər dövlətinin inzibati idarəçilik və hərbi sistemindən bəhs edən ikinci fəslinin ikinci yarımfəsli "**Hərbi-inzibati idarə sistemi**" adlanır. Çingiz xan tərəfindən türk-moğol tayfalarının vahid şəkildə birləşdirilməsi nəticəsində yaranmış inzibati vahidlik "Yeke Manqul Ulusu" adlanırdı. Çingiz xan ölümündən öncə işğal olunmuş və gələcəkdə işğal planında olan əraziləri öz oğlanları arasında uluslara böldü. Tarixi hadisələrin gedişi nəticəsində bu uluslar müstəqil dövlətlərə çevrildi. Tədqiqatçıların fikrincə müstəqil ulus dövlətlərinin inzibati-idarə sistemi və dövlət quruluşu müəyyən müddət ərzində Çingiz xan yasalarına uyğun şəkildə həyata keçirilmiş və hərbi-aristokratik səciyyə daşımışdır.[2] Moğol imperiyasının parçalanması nəticəsində beşinci moğol ulusu adı altında tabe edilmiş Azərbaycan, İraqi – Ərəb, İraqi – Əcəm, Kirman, Gürcüstan, Kiçik Asiya (Rum), Kilikiya Ermənistanı, Kürdüstan, Fars, Xuzistan, Xorasan və bir sıra digər vilayətləri əhatə edən İlxanilər və ya Hülakülər dövləti təşkil edildi.[3]

Tədqiqatçılar tərəfindən müzakirəyə səbəb olan məsələlərdən biri də İlxanilər dövlətinin mərkəzi olan vahid Azərbaycan inzibati ərazi bölgüsünün sərhədləridir. Əksər ingilisdilli tədqiqatçılar Hülakülər zamanında vahid Azərbaycan inzibati vahidini parçalayaraq Araz çayından şimaldakı əraziləri Muğan, Arran, cənubu isə Azərbaycan adlandırır və ya Azərbaycanı "Persiya"nın vilayəti kimi təqdim edirlər.[4] Ancaq qeyd etmək lazımdır ki, dövrün bir sıra mötəbər qaynaqları və problemi xüsusi şəkildə tədqiq edən tarixçilərin qənatələri ingilisdilli tarixşünaslıqda mövcud olan bu subyektiv məlumatların yanlış olduğunu göstərir. Ali Moğol xaqanlığında olduğu kimi Hülakü ulusunda da ordu bozqır döyüş ənənlərinə uyğun olaraq hər biri müxtəlif təyinatlar yerinə yetirən a) menqelay(ön hissədə yerləşən bölük), b) yezək və ya qaravul (kəşfiyyat bölüyü), c) haşər(hərbi əsirlərdən təşkil olunmuş bölük),d) ağruq (İlxanın ailə üzvlərini, şəxsi əmlakını təşkil edən bölük) adlanan bölüklərdən ibarət idi. Çingiz xan türk-moğol tayfalarını vahid dövlətdə birləşdirdikdən sonra ordu quruculuğunda özündən əvvəlki

1 Lambton A.K. Continuity and Change in Medieval Persia. Aspects of Administrative, Economic and Social History, 11th-14th Century, Bibliotheka Persia, London: 1988, p.55
2 Denis A. Iran under Mongol domination: The effectiveness and failings of a dual administrative system// Bulletin d'études orientales. Supplément LVII, 2008, p.65
3 Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: 2011.с.285
4 Lane G. Early Mongol rule in thirteenth- century Iran, London & New York: Routledge Curzon, 2003, p.93; Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988,p.68

ənənlərdən faydalanaraq bir sıra hərbi vəzifələr təsis edilməya başlandı. S.Vasarinin haqlı olaraq qeyd etdiyi kimi o hərbi vəzifələri tərtib edəkən özündən öncə mövcud olan türk dövlət terminlərindən istifadə etmiş, nəticədə türkcə və bəzən də moğol, ya da türkcənin qarışığından ibarət yeni hərbi vəzifələr yaranmışdır[1] Moğol hərbi sistemində olduğu kimi Hülakü ordusunun başçıları hərbi-köçəri aristokratiyanın əsası hesab edilən noyan ünvanlı əmirlər idi. Moğol ensklopediyasının tərtibatçısı K.Atvudun fikrincə noyanlar adi moğol hərbiçilərdən yuxarı Çingiz xan uruğudan (nəsli, oğlanları, qardaşları –N.N) isə aşağı mövqeyə sahib idilər.[2]

Dissertasiyanın Hülakülər dövründə dini təsisatların və məhkəmə sisteminin tədqiqinə həsr olunmuş ikinci fəslin üçüncü yarımfəsli **"Dini təsisatlar və məhkəmə sistemi"** adlanır. Moğolların ilkin dini inancları bütpərəstlik və ənənəvi türk dini inancı olan Tanrıçılıq (Tenqriçilik- N.N) olmuşdur. Tədqiqatçıların əksər hissəsinin gəldiyi qənatə görə Çingiz xan və ondan sonra gələn Ali Moğol Xaqanlarının dini siyasətinin əsasını bütün dinlərə tolerant münasibət təşkil etmişdir.[3] Dövlətin qurucusu Hülakü xan isə buddist və ya şamanist dini inancına sahib olmuşdur. D.Morqan yazır ki, Hülakü xanın buddizmə meyl etdiyi görülsə də, onun dəfn mərasimindən aydın olur ki, bu meyil zəif olmuşdur .[4] A. Bausaninin araşdırmalarına görə isə İlxanilər dövlətinin yaranmasından 1284-1294-cü illərə qədər şamanizm dinin mövqeyi güclü olmuş ancaq Arqun xanın hakimiyyət dövründə buddizm elementlərinin güclənməsi nəticəsində şamanizm elementləri zəifləmişdir[5].

İngilisdilli tədqiqat əsərlərində Abaqa xandan sonra hakimiyyətə gələn Əhməd Təküdərin dövründə dini siyasəti geniş şəkildə araşdırlmışdır. R.Amitai mənbələrə istinadən Əhməd Təküdərin islamı türkmən şeyxlərinin

---

1 Vasary I. "Mongol or Turkic? Notes on bükevül, a Military and Court Official of the Turco Mongolian polities", The Early Mongols. Language, Culture and History. Studies in Honor of Igor de Rachewiltz on the Occasion of His 80th Birthday. Ed. By Volker Rybatzki, Alessandra Pozzi, Peter W. Geier and John R. Krueger. (Indiana University Uralic and Altaic Series, Vol. 173). Indiana University: The Denis Sinor Institute for Inner Asian Studies 2009, p. 195-196.

2 Encyclopedia of Mongolia and The Mongol Empire, by C.P. Atwood, New York: Fact on File, 2004, p.245

3 Biran M. Chinggis Khan, London: Oneworld Publication, 2007, p.68; Michael B. Empire of the Mongols, New-York: Chelse Haus Publisher, 2009,p. 109; Grousset R. The Empire of the Steppes. Translated from the French by Naomi Walford, New Jersey: New Brunswick, 1970, p.220

4 Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988,p. 65

5 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, p. 541

təsirinə düşərək qəbul etdiyini müəyyən etmişdir.[1]

Hülakü hökmdarları içərisində İslamı rəsmi dövlət dini elan edən Qazan xanın xüsusi yeri vardır. R.Amitanin məsələylə bağlı məqaləsində gəldiyi qənaətə görə Qazan xan əslində islamı səmimi şəkildə qəbul etməmiş, ona bunu mövcud olan şərait məcbur etmişdir. Tədqiqatçı həmçinin onun hələ də köhnə moğol şamanist inanclarından uzaqlaşmadığını qaynaqlardan gətirdiyi faktlarla sübut etməyə çalışmışdır.[2]

İngilisdilli tədqiqatçılar tərəfindən İlxanilər dövlətinin dini siyasəti geniş şəkildə araşdırmaya cəlb edilsə də, bu siyasətin dövlət idarəçilik sistemində əks olunması zəyif öyrənilmişdir. Hülakülər dövlətində dini işlərinin idarəsi baş ruhani təşkilatının sərəncamında idi. Bu təşkilata ilxanın xüsusi fərmanına əsasən təyin olunan "qazı əl-qüzzat" (qazılar qazısı – N.N) başçılıq edirdi. Tədqiqiatçıların əksər hissəsi qazı-əl quzzat vəzifəsinə Qazan xanın zamanından başlanaraq xüsusi diqqət yetirirlər. Təbii ki bunun obyektiv səbəbi Qazan xanın islamı qəbul etməsi və həyata keçirdiyi islahatların bir qisminin bu vəzifə ilə bağlı olmasıdır. Ancaq, qeyd etmək lazımdır ki, qazı əl-quzzat vəzifəsi ilkin ilxanlar zamanında da mövcud olmuşdur. A.Ləmbtonun tədqiqatlarından aydın olur ki, Keyxatu xan zamanında Sədrəddinin qardaşı Qütbəddin dövlətin qazı əl-quzzatı təyin edilmişdi.[3]

Hülakülər dövlətində moğol yasaları və adət ənənələrini əsas tutan Yarğu məhkəmələri və İslam şəriəti prinsipi əsasında fəaliyyət göstərən qəza məhkəmələri mövcud olmuşdur. Yarğuçilər İlxan tərəfindən təyin edilirdi. F.Hodusun fikrincə yarğuçilərin fəaliyyəti yalnız "orda" adlanan moğol hərbi düşərgələri ilə məhdudlaşırdı.[4] İlxanın iqamətgahı olan paytaxt şəhərlərində fəaliyyət göstərən yarğuçulara isə böyük divanın yarğuçusi deyilirdi. Onların hansı meyarlar görə təyin edilməsi məsələsinə toxunan İ.Vasari hər bir yarğuçidə dörd növ xüsusiyyətin mövcud olmasını müəyyən etmişdir: 1. Adətləri və imperiyaya aid qanunları bilməli, 2. Çingiz xanın "Qutadqu biliginə"(Böyük Yasaya-N.N) bələd olmalı, 3. Böyuk xaqanların fərman və qətnamələrinə bələd olmalı, 4.Ədalət və bərabərlik prinsiplərinə əməl etməli idilər.[5] Yarğu məhkəmələrindən fərqli olaraq qəza məhkəmələri

---

1 Amitai R. The Conversion of Tegüder İlkhan to İslam //JSAİ. 25. 2001, p. 26

2 Amitai R. The Mongols in the Islamic Lands. Studies in the history of the Ilkhanate, Burlington: Ashgate, 2007, Part VI, p.4-6

3 Lambton A.K. Continuity and Change in Medieval Persia. Aspects of Administrative, Economic and Social History, 11th-14th Century, Bibliotheka Persia, London: 1988,p.90

4 Hodus F. Toluid Dynamics od Asia: Flexibility, legality and identity within Toluid institution, Phd Thesis, London: Univeristy of London, 2013, p.85-86

5 Vasary I. The Preconditions to Becoming a Judge (Yarġuči) in Mongol Iran //Journal of the

isə şəriət qanunlarına əsasən fəaliyyət göstərirdi. Bu tip məhkəmələrə qazı-əl quzzat rəhbərlik edirdi.

Dissertasiyanın üçüncü fəsli **"Hülakülər dövlətinin ictimai-iqtisadi həyatı"** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "**Moğolların Azərbaycan və Orta Şərqdə həyata keçirdikləri sosial-iqtisadi siyasət. Qazan xanın islahatları"** adlanır. Moğolların Yaxın və Orta Şərqə eləcə də, əlverişli coğrafi mövqeyi ilə fərqlənən Azərbaycana ilkin dağıdıcı yürüşləri nəticəsində oturaq əkinçilik sahələrinə sahib olan yerli xalqların təsərrüfatları dağıdıldı və gəlmə köçəri hərbiçilərin örüş sahələrinə çevrildi.

Bununla yanaşı ilkin Hülakü hökmdarlarının tətbiq etdikləri qeyri-müəyyən vergi və mükəlləfiyyətlər sistemi, kənd təsərrüfatı və şəhərlərin iqtisadi inkişafı prosesində ciddi əngələ çevrilmişdi. Bu məsələyə diqqət yetirən T.Allsen vergilərin nəinki həddindən çox olmasını, ildə iki və ya üç dəfə alınmasını, hətta gələcək illərdə alınacaq vergilərin öncədən toplanması hallarının da mövcud olduğunu bildirir.[1] A.Ləmbton isə yazır ki, sui-istifadə hallarının artması nəticəsində vilayətlərdəki rəiyyətin bir hissəsi öz yaşayış yerlərini tərk edərək başqa ərazilərdə məskunlaşmış, şəhər və kəndlər boşalmışdı.[2] Nəticədə Hülakülər dövlətində Qazan xana qədər siyasi və sosial-iqtisadi böhran dərinləşmişdi.

Hakimiyyətə müsəlman olaraq gələn, "Padşah-e İslam" titulunu və Mahmud adını qəbul edən Qazan xan idarəetmə və sosial-iqtisadi sahədə ədalətli islahatlar həyata keçirməyə başladı.[3] Belə ki, İslam dinin qəbulu bu dinin əsas müddəalarının, xüsusilə ədalət prinsipinin idarəetmə işində əsas tutulmasını zəruri edirdi.

İngilisdilli tarixçilər tərəfindən Qazan xanın dini islahatı geniş tədqiqata cəlb olunasa da, onun sosial-iqtisadi sahədə gördüyü tədbirlər çox zəif öyrənilmişdir. Sosial-iqtisadi həyatın müxtəlif sahələrində(torpaq, vergi, ticarət, məhkəmə, rabitə, təqvim) islahatlar həyata keçirən Qazan xan dövləti mövcud böhrandan çıxarmış və Hülakülər dövlətinin tənəzzülünü bir müddət ləngitməyi bacarmışdı.

Üçüncü fəslin ikinci yarımfəsli Hülakülər dövründə şəhərlərin sosial-iqtisadi vəziyyəti, ticarət və beynəlxaq ticarət əlaqələrinin vəziyyətini əhatə

---

Royal Asiatic Society, 26, 2006, p 162

1 Allsen T. Mongol Imperialism. The Policies of the Grand Qan Möngke in China, Russia and the Islamic Lands, 1251-1259, London: University California Press, 1987, p.144

2 Lambton A.K. Landlord and peasent in Persia, London: Oxford University Press, 1953,p.77

3 Melville C.P. "Padshah-i Islam: the conversion of Sultan Mahmud Ghazan Khan," in Melville (ed.), Pembroke Papers 1: //Persian and Islamic studies in Honour of P.W. Avery, 1990, p.172

edən “**Şəhərlər, ticarət və beynəlxalq iqtisadi əlaqələr”** adlanır. Moğol işğallarının Azərbaycan və Orta Şərqdə mövcud olan şəhərlərin durumuna göstərdiyi təsir dövrün qaynaqlarında da öz əksini tapmışdır. F.Rəşidəddin Qazan xanın islahatlarına qədər şəhərlərdə yerləşən hər on evdən beşinin boş və dağıdılmış halda olduğunu, Məhəmməd Naxçıvani Naxçıvan şəhərində altı evdən beşinin əhalisinin şəhəri tərk edərək ətraf bölgələrə köçdüyünü bildirir.[1] Bu dövrdə tədqiqatçılar tərəfindən daha çox diqqət yetirilən şəhərlər şübhəsiz dövlətin əsas inzibati və siyasi mərkəzləri olan Marağa, Təbriz və Sultaniyyə kimi Azərbaycan şəhərləridir.

XIII əsrin ortalarında Hülakü xan tərəfindən müstəqil ulus dövlətin təsis edilməsi və ilk öncə Marağanın paytaxt seçilməsi şəhərin taleyinin müsbət mənada dəyişməsinə səbəb oldu. 1259-cu ilin iyulun 12-də burada Nəsirəddin Tusinin öndərliyi ilə Marağada yeni rəsədxananın inşa edilməsi şəhərin mövqeyinin moğol hökmdarları tərəfindən yüksək qiymətləndiriliyini sübut edir.[2] A.Boyl XIV əsrin əvvələrində şəhər haqqında məlumat verən İbn Bəttutənin Marağanı kiçik Dəməşq adlandırdığını bildirir.[3] İngilisdilli tarixçilərin daha çox diqqət ayırdığı şəhər Abaqa xan zamanından dövlətin paytaxtına çevrilmiş Təbriz şəhəridir. Şəhərin dövlətin baş şəhəri olması onun inkişafını daha da sürətləndirdi. Hülakü xanın Yaxın və Orta Şərqin əsas mərkəzi şəhəri hesab edilən Bağdadı işğal etməsindən sonra bu şəhərin sosial-iqtisadi və ictimai-siyasi mövqeyi Təbrizə keçdi. C.Karlın fikrincə beləcə, Təbriz çox geniş əraziləri əhatə edən Moğol imperatorluğunun qərbində Kubilay xan tərəfindən paytaxt şəhər seçilən Pekinin oynadığı rolu oynamağa başladı.[4]

Moğol hökmdarlarının ticarət və tacirlərə olan münasibətlərini araşdıran T.Allsen və P.Vinq qənətlərinə görə Hülakü xandan başlayaraq İlxani hökmdarları tacirlərə xüsusi diqqət və ehtiram göstərməyə başladılar və ticarətin təşikili onlar üçün həmişə prioritet məsələ oldu.[5] Kivitaz Zaurisin

---

1 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, p. 506

2 Rashiduddin Fazlullah's Jamiʻuʾt-tawarikh. Compendium of chronicles: a history of the Mongols (English translation & annotation by W.M. Thackston).Vol III, Harvard University, Dept of Near Eastern Languages and Civilizations.1998, p.501

3 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, p. 508

4 John Karl. Doğu ile Batı arasında bir ortaçağ kültür merkezi – Tebriz // İslam Tetkikleri Dergisi, Çilt 4, 1971, s.59

5 Allsen T. Mongolian Princes and Their Merchant Partners, 1200-1260// Asia Major, THIRD SERIES, Vol. 2, No. 2, 1989, p.110; Patric W. Rich in goods abounding in wealth the Ilkhanid and post-Ilkhanid ruling elite and the politics of commercial life at the Tabriz, 12501400// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century

yazır ki, qaynaqlarda Təbriz şəhərində 1263-cu ildən Venesiyalı, 1280-ci ildən isə Genuyalı tacirlərinin fəaliyyətləri qeydə alınmışdır.[1] P.Vinqin araşdrımalarına görə genuyalı tacirlərin Şərqlə əlaqələrinin ən yüksək dövrü Olcaytu Xudabəndə və Əbu Səid hakimiyyətləri dövrünə təsadüf edir. Müəllif bu vaxt genuya tacirlərinin ticarət fəaliyyətlərinin genişlənərək ingilis kanalından Çinə qədər əraziləri əhatə etdiyini bildirir.[2] M. Bernardinin məlumatına əsasən Gilandan, Lahicandan, Gəncə və Qafqazdan gələn ipək Təbriz bazarlarında italyan tacirlər tərəfindən satın alınaraq İtalyanın ipək emalı mərkəzi olan Lukaya daşınırdı.[3] V.Lisak genuyalıların 1288-ci ildə Bağdadda okeanlar vasitəsi ilə ticarət etmək məqsədi ilə iri ticarət gəmiləri inşa etməyə təşəbbüs göstərini müəyyən etmişdir.[4]

Üçüncu fəslin üçüncü yarımfəsli "**Torpaq, vergi siyasəti və sosial münasibətlər"** adlanır. Hülakülər dövlətində aqrar münasibətlər və bu münasibətlətin tərkib hissəsi olan torpaq və vergi siyasəti ingilisdilli tarixşünaslıqda çox zəif öyrənilən problemlərdəndir. Ancaq, bəzi ingilisdilli tarixçilər aqrar məsələnin bir sıra problemləri xüsusilə torpaq mülkiyyəti və bəzi vergi növləri haqqında müəyyən ölçüdə araşdırmalar aparmışlar. XIII-XIV əsrlərdə Hülakülər dövlətində torpaq mülkiyyətinin aşağıdakı formaları vardı: 1) dövlət torpaqları - divani; 2) hakim sülaləyə məxsus olan torpaq mülkləri - xassə, (Hülakülar dövründə isə incu və yaxud xass incu); 3) mülklər; 4) dini idarələrə və xeyriyyə təşkilatlarına məxsus olan vəqf torpaqları; 5) dövlətə qulluq müqabilində verilmiş iqta torpaqları; 6) camaat - icma torpaqları. Hülakülər dövlətinin təsis edilməsindən sonra divan torpaqlarının çox hissəsi İlxanlar tərəfindən irsi mülk və şərti iqta torpaqlarına çevrildi. A.Ləmbton divan torpaqlarının dövlətə məxsus olduğunu, lakin, daha sonrakı vaxtlarda bu torpaqların dövlətə və ya hökmdar ailəsinə aid olmasını fərqləndirməyin çətin olduğunu qeyd edir.[5] İlxanilər

---

Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, p.303

1 Chivitas Thauris. The significance of Tabriz in the spatial framework of the christian merchants and ecclesiastics in the 13th and 14th centuries// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, p. 258

2 Patric W. Rich in goods abounding in wealth the Ilkhanid and post-Ilkhanid ruling elite and the politics of commercial life at the Tabriz, 12501400// Politics, patronage and the Transmission of Knowledge in 13th-14th century Tabriz, Edit by Judith Pfeiffer, Leyden-Boston: Brill, 2014, p.309

3 Bernardini M. Genoa, Encplopediya İranica, ed, Ehsan Yarshatar, London and New-York: Rutlage and Kegan Paul, 2001, p. 423

4 Vladimír Lisak. İtalian City-states and Catholic Missions in Mongolian World of the 13th and 14th Centuries // Anthropologia Integra, Vol. 3 no.2/2012, p.5

5 Lambton A.K. Landlord and peasent in Persia, London: Oxford University Press, 1953, p.78

dövlətində mövcud olan incu torpaq mülkiyyəti forması da mövcud olmuşdur. Terminin etimologiyasına toxunan C. Döfanın fikrincə incu sözü uyğurca- kölə, əsir, miras və ya cehiz[1], H.Klausona görə isə çincə - evlənən zaman gəlinə verilən xidmətçi mənasını ifadə edir.[2] K.Şiraivanın fikrincə isə bu termin Moğolların gizli tarixində tez-tez rast gəlinən moğolca "emcu" sözündən əmələ gəlmiş və "kiməsə məxsus olan" və ya "şəxsi" mənalarını ifadə edir.[3] Nəsirəddin Tusi "Maliyyə risaləsi"ndə İlxanilər dövründə xassə əmlakının irsi xarakter daşıdığını vurğulamışdır.[4] Moğol yürüşləri nəticəsində yerli hakimlərə məxsus olan digər torpaq formaları kimi iqta torpaqları da işğal edildi. R.Amitai moğolların Ön Asiyaya gəldiyi zaman iqta sistemindən istifadə etməmələrinin səbəbi türk-moğol ordusunun quruluşu ilə izah edir. Müəllifə görə əsas gəliri iqta torpaqlarından olan Ön Asiya dövlətlərinin hərbi sistemindən fərqli olaraq türk-moğol ordusu maddi ehtiyacını qənimət və qalibiyyətli müharibələr hesabına təmin edir, buna görə oturaq təsərrüfatından əldə olunacaq gəlirə ehtiyac duymurdu.[5] İlxanilər dövlətində mövcud mülkiyyət formalarından biri vəqf əmlakı idi. Moğolların ilkin yürüşləri zamanı vəqf torpaqları da hərbi-köçəri moğol əsilzadələrıı tərəfindən zəbt edilmişdi. Hülakülər dövlətinin yaranması və İlxani hökmdarlarının islamı qəbul etməsindən sonra isə vəqf əmlakının yenidən inkişafı dövrü başlanır. "Tarix-i Vəssaf"ın verdiyi məlumata görə Baydu xan zamanında vəqf üzərinə qoyulmuş vergi yasası aradan qaldırılmışdı.[6]

Hülakülər zamanı mövcud olmuş qopçur, tamğa, tağar, bac kimi vergilər haqqında mülahizlər irəli sürən ingilisdilli müəlliflər problemə kompleks şəkildə yanaşmayaraq hətta bir sıra vergi və mükəlləfiyyətlərin adını belə çəkmirlər. Moğol dövründə ağır vergilərdən biri qopçur (və ya kopçur –moğol dilində "otlaq, biçənək" mənasına gəlir – N.N) idi. T.Allsenin araşdırmalarına görə XIII əsrdə qopçur üç müxtəlif mənanı ifadə edirdi. 1) Vergi və mükəlləfiyyət 2) oturaq əhalidən alınan əmlak vergisi 3)

---

1 Gerhard Doerfer. Türkische und Mongolische elemente im neopersischen. Band II, Weisbaden: F. Steiner, 1965, 220-225

2 Clauson G. An etymological dictionary of Pre-Thirteenth Century Turkish, Oxford: At the Clarendon Press, 1972, p.173

3 Shiraiwa Kazuhiko. Injü in the Jami' al-tavarikh of Rashid al-Din //AOH, XLII/2-3, 1988, p. 376

4 Nasir al-Din Tusi on Finance. Translate by M.Minovi and V.Minorsky// Bulletin of the School of Oriental and African Studies, University of London, Vol. 10, No. 3, 1940, p. 762

5 Amitai R. The Mongols in the Islamic Lands. Studies in the history of the Ilkhanate, Burlington: Ashgate, 2007, p.157

6 عبدالله من فضل الله وصاف. تاریخ وصاف. با هتمام: محمد مهدی اصفهانی. تهران: انتشارات کتابخانه مجلس، ۱۲٦۹، ۷۰۷، ص. 284 s.

köçərilərdən alınan mal-qara vergisi[1]. A.Ləmbtonun araşdırmalarına görə qopçur vergisi Münke xanın fərmanına əsasən varlı şəxslərdən 10 dinar kasıblardan isə 1 dinar məbləğində alınmalı idi. D. Morqan da qopçurun əvvələr köçərilərdən alınan vergi olduğunu, ancaq, 1250-ci illərdən sonra oturaq əhalidən alınmağa başlanıldığını qeyd edir.[2] N.Tusinin "Risalə"sində olan məlumata görə Hülakü və Abaqa xan zamanında tərxanlar, qocalar, xəstələr, dərvişlər və uşaqlar qopçur adlı can vergisindən azad hesab olunurdu.[3] "Kembricin İran tarixi" əsərində olan məlumata görə Cəlairlər zamanında qopçur vergisi sər-şumara adı ilə varlığını davam etdirmişdir[4]. Moğollar dövrünə aid qaynaqlarda işlədilən damğa və ya tamğa termini tədqiqatçıların diqqətinə səbəb olmuşdur. B.Nyamanın fikrincə moğol tayfaları daxilində çəkişmələr zamanı bir qəbilə digərindən ayrılır və beləcə əsas tayfanın damğasından yeni qəbilənin şəxsi mənsubiyyətini, nəslini göstərən törəmə damğalar yaranırdı.[5] B.Şpuler fikrincə dövlət damğası əski zamanlardan adətən iki rəngdə olurdu. Məxfi və ən mühüm sənədlər üzərinə göy rəngli (gök tamqa- N.N), əksər dövlət sənədlərinə isə qırmızı rəngli damğa vurulurdu. Bundan əlavə poçt məntəqələrində yaşıl, dairlərin yoxlanılması zamanı isə qara rəngli damğalardan istifadə olunurdu.[6] Mənbələrdə damğanın ikinci mənasına vergi mənasında rast gəlinir. S.Vassarinin araşdırmalarına görə moğol dövründə tamğa satış və ya gömrük vergisi idi. D.Morqan isə tamğanı müasir dövrdə mövcud olan əlavə dəyər vergisi ilə eyniləşdirir.[7]

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş və müvafiq elmi ümumiləşdirmələr aparılmışdır.

---

1 Allsen T. Mongol Imperialism. The Policies of the Grand Qan Möngke in China, Russia and the Islamic Lands, 1251-1259, London: University California Press, 1987,p.153

2 Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988,p.67

3 Nasir al-Din Tusi on Finance. Translate by M.Minovi and V.Minorsky// Bulletin of the School of Oriental and African Studies, University of London, Vol. 10, No. 3, 1940, p.776

4 The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, p.531

5 Bdarach Nyamaa. The coins of Mongol empire and clan tamgha of Khans.(XIII- XIV), Ulaanbaatar: 2005,p.21

6 Bertold Spuler. İran Moğolları. (çeviren Cemal Köprülü), Ankara: Türk Tarih Kurumu Yayınevi, 2011, s.320

7 Morgan D.O. The Mongols. "Peoples of Europe" series, ed. J. Campbell and Cunliffe. B. Oxford: Basil Blackwell, 1986,p.89

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**

1. Qazan xanın dini islahatı (ingilisdilli tarixşünaslıq üzrə) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2015, №4, səh. 127-133
2. Elxani hökmdarı Keyxatu xanın kağız pul(çao) islahatı // Azərbaycan xalçaları, c 6, Bakı, 2016, № 18 səh. 75-80
3. Abaqa xan dövründə Elxani - Cağatay münasibətləri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2016, №1, səh. 153-159
4. Elxan titulu haqqında qeydlər (ingilsdilli tarixşünaslıq əsasında)// Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları (toplu). I cild. Bakı, 2016, səh. 495-497
5. Отношения Ильханидов и Великого Монгольского - Каганата // Третьих Всероссийский (с международным участием) историко-этнографические чтения посвященные памяти профессора Магомедова Расула Магомедовича. (Сборник) ч1. М, 2016, стр. 154-1586.
6. Supreme Power in the İlkhanate state (on the basis of English - language works)// Сборник научных работ «Гилея: научный вестник». Выпуск 111 (8). Киев, 2016, стр 136-137
7. Elxanilər dövlətində ali hakimiyyət (ingilisdilli tarixşünasliq üzrə)// Gənc alimlərin I beynəlxalq elmi konfransı (toplu). I hissə. Gəncə, 2016, səh. 154-155
8. Elxani hökmdarı Sultan Əhməd Təküdər xanın daxili və xarici siyasəti (İngilisdilli tarixşünaslıq əsasında)// Azərbaycan Milli Elmlər Akademiyası. Tarix institutu. Elmi əsərlər. Cild 59, Bakı, 2016, № 1, səh. 13-23
9. Elxanilər dövlətində şəhərlər (ingilisdilli tarixşünaslıq əsasında) // "Müstəqil Azərbaycanın 25 il ərzində keçdiyi tarixi yol" mövzusunda keçirilən elmi-praktik konfransın materialları. Bakı, 2016, səh. 76-78
10. Elxanilər dövlətinin dini siyasəti (ingilisdilli tarixşünaslıq əsasında) Azərbaycanşünaslığın Aktual Problemləri VIII Beynəlxalq Elmi Konfrans. Bakı, 2017. səh.178-179
11. Moğolların Misir yürüşü. Ayn-Calut savaşı (ingilisdilli tarixşünaslıq əsasında) // Gənc alimlərin II beynəlxalq elmi konfransı (toplu). I hissə. Gəncə, 2017, səh.125

**Насиров Н. П**

## Социально-экономическая и политическая история государства Хулагуидов (на основе англоязычный историографии)

## РЕЗЮМЕ

Представленная диссертационная работа посвящена изучению социально-экономической и политической истории государства Хулагуидов в англоязычной историографии, по сей день слабо изученной в отечественной историографии.

Диссертация состоит из Введения, трех глав, Заключения, Списка литературы. Во **«Введении»** обоснована актуальность темы, проанализированы используемые источники и литература, определены цели, задачи и методологическая основа диссертационной работы.

В первой главе диссертации, озаглавленной **«Политическое положение в Азербайджане и на Ближнем Востоке»,** изучены исследования англоязычной историографии, в которых освещены политическая обстановка в создание государства Хулагуидов (Ильханов). В главе также рассматриваются политические отношения Ильханов с Мамлюкским султанатом, Румским султанатом Сельджукидов, Великим Монгольским Каганатом и Чагатайским улусом, государствами крестоносцев и Западной Европы вплоть до падения улуса Хулагуидов.

Вторая глава диссертации называется **«Государственный строй Хулагуидов».** В этой главе рассматрены вопросы верховной власти, военная и административная система, религиозные учреждения и суд в период Ильханата на основе материалов первичных источников и сравнительном анализе основных публикаций англоязычной историографии и соответствующих работ отечественных историков.

Третья глава диссертации называется **«Социально-экономическая жизнь в государстве Хулагуидов».** В этой главе анализируются социально-экономическое положение в Азербайджане и других странах Ближнего Востока после нашествия монголов и последующего создания улуса Хулагуидов, предпосылки к проведению реформ Газан-ханом и их результаты. Наряду с отмеченными проблемами, в данной главе также исследованы формы земельной собственности, налоговая система и повинности, города и международные торговые отношения в период Хулагуидов.

В Заключении обобщены результаты исследования и сделаны соответствующие научные выводы.

**Nasirov.N.P**

# The social-economic and political history of Hulagu state(on the basis of English-language works)

## SUMMARY

This thesis explores the social-economic and political history of Azerbaijan and Middle East in the Ilkhanate period on the basis of English-language historigraphy, which has been poorly explored in the national historiography

This thesis consists of introduction, three chapters, Conclusion, References and Appendix.

**Introduction** covers relevance of the topic, primary sources and secondary literature on the issue.

The first chapter of the thesis, titled as **"The political condition in the Azerbaijan and Middle East"** examines the history of political condition eve created independent Hülaguid state. The chapter also informs about the political relations Hulaguid with the Mamluk Sultanate, Sultanate of Rum, Grand Mongol khaganate, Chagatai khaganate, Crusades and Western European states until fall of state.

The second chapter is called as **"State structure of Hulagu state".** This chapter deals with the issues of supreme power, military and adminstirative system and religios institITIONS and court in the Ilkhanate period on the basis of primary resources and English-language historiography materials.

The third chapter is named "**The social-economic life in the Hulagu state"**. In this chapter has been analysed socio-economic policy of Azerbaijan and Middle East after Mongol invasion and created independent Ilkhanate state, the prerequisites reforms of Ghazan khan and its results. Along with the mentioned problems the chapter examines he forms of land ownership, tax system and duties, cities and international trade relations in the period of the Hulaguid state.

**In Conclusion**, the results of the study are summarized and relevant scientific conclusions

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 2
Tiraj  100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**НУРЛАН ПАША оглы НАСИРОВ**

# СОЦИАЛ ЬНО - ЭКОНОМИЧЕСКАЯ И ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ ГОСУДАРСТВА ХУЛАГУИДОВ (НА ОСНОВЕ АНГЛОЯЗЫЧНЫЙ ИСТОРИОГРАФИИ)

**Специальность: 5503.02 – «Отечественная история»**
**5509.01 – «Историография, источниковедение и методы исторических исследований»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ - 2018**